

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 33 (21.694)

16 fevral 2017-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Şahbuz rayonunun Kolanı kəndində yeni məktəb binası istifadəyə verilib





Naxçıvan Muxtar Respublikasında ölkə Prezidenti cənab İlham Əliyevin müəyyənləşdirdiyi ***"İqtisadi resursların insan kapitalına çevrilməsi"*** prinsipi əməli iş müstəvisinə çıxarılıb. Gənc nəslin hərtərəfli təhsil alması, peşə sahibi olması və vətənpərvər böyüməsi üçün tədbirlər görülür. Bütün yaşayış məntəqələrində yeni texnologiyalarla təchiz olunan və müasir tədris metodlarının tətbiq olunduğu məktəb binaları tikilərək istifadəyə verilir.

Fevralın 15-də Şahbuz rayonunun Kolanı kəndində yeni məktəb binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov məktəbin açılışını bildirən lenti kəsmişdir.

Kolanı kənd tam orta məktəbinin direktoru Rəqsanə Əsgərova çıxış edərək demişdir ki, muxtar respublikada həyata keçirilən quruculuq işləri sakinləri sevindirir. Bu tədbirlərin davamı olaraq Kolanıda geniş quruculuq işlərinin aparılması kəndimizi müasir kəndlərin sırasına qoşub. Bu gün müasir məktəb binası istifadəmizə verilir. Yeni məktəb binası həm müəllimlərin, həm də valideynlərin uzun illərdən bəri ürəklərində olan arzularının həyata keçməsi deməkdir. Rəqsanə Əsgərova yaradılan şəraitə görə kollektiv adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Kolanı kənd tam orta məktəbinin yeni binasının istifadəyə verilməsi münasibətilə kollektivi təbrik etmiş, əməyi olanlara təşəkkürünü bildirərək demişdir: Bu gün Azərbaycanda təhsil sahəsinə xüsusi diqqət və qayğı göstərilir. Təhsilin inkişafı ilə bağlı qanunlar, dövlət proqramları qəbul olunaraq icra edilir. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***"Təhsil sisteminin inkişafında orta məktəblərə qayğı xüsusi yer tutmalıdır".*** Ulu öndərin tövsiyələrini uğurla yerinə yetirən ölkə Prezidentinin təhsilin inkişafına göstərdiyi qayğının nəticəsidir ki, bu gün ölkəmizdə yeni məktəb binaları tikilərək gənc nəslin istifadəsinə verilir.



Ali Məclisin Sədri demişdir: Gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olmaq bu gün qarşıda duran əsas vəzifədir. Çünki bu, ölkəmizin gələcəyi ilə bağlı məsələdir. Müdriklərin də qeyd etdiyi kimi, bir ölkənin gələcəyini bilmək üçün onun gəncliyinə nəzər salmaq lazımdır. Ona görə də gənclər təhsilli və vətənpərvər yetişdirilməlidir. Təhsilli və vətənpərvər gənc isə gələcəkdə həm ölkəsi, həm də cəmiyyət və ailəsi üçün yararlı olacaqdır. Müasir tədrisin tələbləri səviyyəsində qurulan Kolanı kənd tam orta məktəbində bu vəzifələrin yerinə yetirilməsi üçün hər cür şərait var. Gənclər onlar üçün yaradılan bu şəraitdən səmərəli istifadə etməli, yaxşı təhsil almalı, peşə öyrənməli, özlərini gələcəyə hazırlamalıdırlar. Müəllimlər isə gənclərin hərtərəfli təhsil alması və əsl vətəndaş kimi yetişdirilməsi qayğısına qalmalıdırlar.

Kolanı kənd tam orta məktəbinin nailiyyətlərinin qənaətləndirici olduğunu bildirən və buna görə kollektivə təşəkkür edən Ali Məclisin Sədri yaradılan şərait müqabilində uğurların daha da artacağına, ölkəmizin gələcəyini təmin edən təhsilli və vətənpərvər gənclərin yetişdiriləcəyinə əminliyini ifadə etmiş, kollektivə tədrisdə uğurlar arzulamışdır.

Bildirilmişdir ki, 360 şagird yerlik məktəb binası 3 mərtəbədən ibarətdir. Binada 3-ü elektron lövhəli olmaqla 20 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, 2 kompüter otağı, müəllimlər otağı, şahmat otağı, kitabxana, bufet, idman zalı və açıq idman qurğuları vardır.

Ali Məclisin Sədri məktəbdə kitabxana işinin təşkili ilə maraqlanmışdır. Qeyd olunmuşdur ki, hazırda məktəb kitabxanasının fondunda 2300 dərslik və 2842 bədii ədəbiyyat olmaqla 5142 kitab vardır. Şagirdlərin kitab mütaliəsinə marağının artırılması diqqətdə saxlanılır, müxtəlif tədbirlər keçirilir.

Məktəbdə yeni texnologiyaların tətbiqi tədrisin daha səmərəli təşkilinə imkan verir. Kompüter otağında 38 kompüter quraşdırılmış və internetə qoşulmuşdur. Elektron lövhəli siniflərdə distant dərslərin keçirilməsi üçün şərait yaradılmış, məktəbə elektron dərsliklər verilmişdir. Elektron lövhəli sinifdə Cəlil Məmmədquluzadənin Ev Muzeyi ilə əlaqə yaradılmış, ümumilikdə, muxtar respublikanın 209 təhsil müəssisəsinin iştirakı ilə "Cəlil Məmmədquluzadənin həyat və yaradıcılığı" mövzusunda distant dərs keçirilmişdir.

Gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi, xüsusilə onlarda hərb sənətinə marağın artırılması bu gün tədris prosesində qarşıda duran əsas vəzifələrdəndir. Muxtar respublikanın ümumtəhsil məktəblərində müasir hərbi kabinələr istifadəyə verilir, çağırışaqədərki hərbi hazırlıq fənninin tədrisinə diqqət artırılır. Kolanı kənd tam orta məktəbində də müasir tədris vasitələri ilə təmin olunmuş hərbi kabinə istifadəyə verilmişdir.

Məktəbin geniş idman zalı fiziki tərbiyə dərslərinin hərtərəfli tədrisinə imkan verəcəkdir. Şahmatın tədrisi üçün də məktəb binasında lazımi şərait yaradılmışdır.

Ali Məclisin Sədri gənclərin sağlam böyüməsində və əqli inkişafında bədən tərbiyəsi və idmanın, eləcə də şahmatın tədrisinin əhəmiyyətini vurğulamış, şagirdlərdə hərb sənətinə marağın artırılmasının vacibliyini qeyd etmiş, müvafiq tapşırıq və tövsiyələrini vermişdir.

Müəllimlərlə görüşən Ali Məclisin Sədri demişdir ki, Kolanı kəndində aparılan quruculuq işləri, yaradılan şərait insanların rahat yaşayışına xidmət edir. Artıq Kolanı müasir Azərbaycan kəndinə nümunədir. Bu gün kənddə müasir tədrisin tələblərinə uyğun yeni məktəb binası istifadəyə verildi. Məqsəd ondan ibarətdir ki, orta məktəbi bitirən gənclər ölkəmizdəki ali məktəblərlə yanaşı, həm də dünyanın istənilən yerində ali təhsil almaq imkanına malik olsunlar. Elektron lövhəli siniflər, laboratoriyalar, kompüter sinifləri, xarici dillərin tədrisi və digər müasir tədris metodlarının tətbiqi qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsinə imkan verəcəkdir. Ötən il Kolanı kənd tam orta məktəbini bitirən məzunlardan altısı ali məktəblərə, beşi orta ixtisas məktəbinə qəbul olunub. Məzunlardan biri 639 bal toplayaraq İngilis dili müəllimliyi ixtisasına daxil olub. Bundan sonra da müəllimlər daim öz üzərlərində işləməli, tədrisin keyfiyyətinə diqqət yetirməli, nəticələr daha da artmalıdır.

Məktəbin müəllimi Ofelya Həsənova minnətdarlıq edərək demişdir: Kolanı kənd tam orta məktəbində bütün şərait var. Kollektiv üzərinə düşən məsuliyyəti dərk edir. Müasir məktəb binasında tədrisin keyfiyyətini artıracaq, məktəbdə gələcəyin həkimlərini, mühəndislərini, müəllimlərini və digər peşə sahiblərini yetişdirəcəyik. Çalışacağıq ki, şagirdlər savadlı və peşə sahibi olmaqla yanaşı, həm də vətənpərvər böyüsünlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Ötən il də muxtar respublikada məktəb tikintisi diqqət mərkəzində olub

*Muxtar respublikada təhsilin səviyyəsinin daha da yüksəldilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilir. Hər bir kənddə, yaşayış məntəqəsində yeni məktəb binaları tikilir, təhsilin müasir dövrün tələbləri səviyyəsində təşkili üçün hərtərəfli şərait yaradılır.*

Yeniyetmə və gənclərin təhsili üçün yaradılan imkanlar mühüm strateji məqsədə xidmət edir. Belə ki, təhsil olmadan savadlı, hərtərəfli inkişaf etmiş gənc nəsil yetişdirmək mümkün deyil. Məhz bu səbəbdən bu gün nəinki Naxçıvan şəhərində, hətta ən ucqar dağ və sərhəd kəndlərində də müasir tədris avadanlıqları, sürətli internetə çıxışı olan kompüterlər, elektron lövhələr, zəngin fonda malik kitabxanalar və idman zalları ilə təmin olunmuş məktəb binaları tikilib istifadəyə verilir. Bu tədbirlərin davamı olaraq ötən il Şərur rayonunun Oğlanqala kəndində 576, Arbatan kəndində 234, Babək rayonunun Yarımca kəndində 342, Məzrə kəndində 270, Xəlilli kəndində 144, Ordubad rayonunun Baş Dizə kəndində 156, Culfa rayonunun Saltaq kəndində 306, Xanəgah kəndində 198, Gülüstan kəndində 156, Kəngərli rayonunun Şahtaxtı kəndində 594, Yurdçu kəndində 270, Şahbuz rayonunun Daylaqlı kəndində 168 şagird yerlik olmaqla, ümumilikdə, 3414 şagird yerlik 12 məktəb binası istifadəyə verilib. Bundan başqa, 380 şagird yerlik Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyin, Naxçıvan Dövlət Texniki Kollecinin və Ordubad Texniki Peşə və Sürücülük Məktəbinin binaları da yenidən qurularaq gənc nəslin istifadəsinə verilib. Naxçıvan şəhərində 640 şagird yerlik 3 nömrəli tam orta məktəbdə yenidənqurma işləri başa çatdırılıb. Bu ilin yanvar ayında həmin məktəb müəllim və şagirdlərin istifadəsinə verilib.

Təhsilə göstərilən qayğı, yaradılan şərait bəhrəsiz qalmır. Hər il ali məktəblərə sənəd verən abituriyentlərin yüksək nəticə göstərmələri qeyd olunanların əyani sübutudur. Belə ki, 2016-cı ildə qəbul imtahanlarında iştirak edən məzunlardan 1737-si ali məktəblərin, 567-si isə orta ixtisas məktəblərinin tələbəsi adını qazanmışdır. Ali məktəblərə qəbul olunan məzunlardan 338-i imtahanlarda 500-dən çox bal toplayıb. Yüksək nəticə əldə edərək tələbə adını qazananlardan 4-ü ölkə başçısının sərəncamı ilə Prezident təqaüdünə layiq görülüb.

**Xəbərlər şöbəsi**

# Yaxın gələcəkdə muxtar respublikamızın elektrik enerjisinə olan tələbatı tamamilə alternativ və bərpa olunan enerji mənbələri hesabına ödəniləcək

***Muxtar respublikamızın elektroenergetika sisteminin yenidən qurulması istiqamətində irimiqyaslı layihələr həyata keçirilir. Bunlarla bağlı ətraflı məlumat almaq üçün Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin baş direktoru Yasin Səfərovla görüşüb həmsöhbət olduq:***

***– Naxçıvanın enerji təhlükəsizliyinin təmin olunması istiqamətində hansı işlər görülüb?***

– Ümummilli liderimiz Heydər Əliyevin müəyyən etdiyi iqtisadi inkişaf strategiyası bu gün uğurla davam etdirilir. Elektrik enerjisi təchizatının yaxşılaşdırılması məqsədilə ölkə Prezidenti cənab İlham Əliyev 2005-ci il mayın 2-də “Azərbaycan Respublikasında elektrik enerjisi təminatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” Sərəncam imzalayıb. Sərəncamın icrası muxtar respublikada da uğurla həyata keçirilib. Belə ki, 2006-cı ildə Naxçıvan Qaz-Turbin Elektrik Stansiyasının təbii qazla işləmə rejiminə keçməsi təmin olunub, 220 kilovoltluq “Babək” yarımstansiyasında əsaslı təmir və yenidənqurma işləri aparılıb. Ümumi gücü 87 meqavat olan Naxçıvan Modul Elektrik Stansiyası tikilib istismara verilib və sonrakı mərhələlərdə bu istiqamətdə kompleks işlər davam etdirilib.

Son illər muxtar respublikanın mövcud hidroenerji potensialından səmərəli istifadə olunmaqla ekoloji təmiz və iqtisadi cəhətdən daha səmərəli olan su elektrik stansiyaları tikilib. 2006-cı ilin dekabrında Heydər Əliyev Su Anbarı üzərində 4,5 meqavat gücündə su elektrik stansiyası, 2010-cu ilin oktyabrında Gilançay üzərində 22 meqavat gücündə Biləv Su Elektrik Stansiyası, 2014-cü ildə isə Şərur rayonu ərazisində 20,5 meqavat gücündə “Arpaçay-1” və 1,4 meqavat gücündə “Arpaçay-2” Su Elektrik stansiyaları istismara verilib.

***– Alternativ və bərpa olunan enerji mənbələrindən istifadə ilə bağlı hansı layihələr həyata keçirilir?***

– Əlverişli coğrafi mövqe və iqlim şəraiti muxtar respublikada ekoloji cəhətdən təmiz, tükənməyən alternativ enerji mənbələrindən istifadəyə geniş imkanlar açır. “Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”na əsasən, muxtar respublikada alternativ və bərpa olunan enerji mənbələrinin yaradılması istiqamətində müvafiq tədbirlər həyata keçirilir. Bu sahədə görülən işlərin tərkib hissəsi olaraq, 2015-ci il dekabrın 1-də Babək rayonunun Xal-xal kəndi yaxınlığında 20 meqavat gücündə Naxçıvan Günəş Elektrik Stansiyası istifadəyə verilib. Burada işlər Belçika Krallığının “Soltech” şirkəti tərəfindən həyata keçirilib. Stansiyada 78 min 684 ədəd ən müasir “şüşə-şüşə” tipli Günəş panelləri, onlar üçün dayaqlar və 11 elektrik yarımstansiyası quraşdırılıb.

Bu gün Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin balansında olan 8 elektrik stansiyasından 6-sı son 20 ildə istismara verilib. 1970-ci ildən istismar olunan 22 meqavat güclü Araz Su Elektrik Stansiyası nəzərə alınmaqla istehsal gücü 206 meqavat olan elektrik stansiyalarında hazırda tələbata uyğun olaraq, 80-90 meqavat gücündə elektrik enerjisi istehsal edilir.

Yaz-yay aylarında nasos stansiyalarının işləməsi ilə əlaqədar olaraq, muxtar respublikamızın elektrik enerjisinə tələbatı 80-85 meqavat, qalan aylarda isə 45-50 meqavat olur. Yaz aylarında su elektrik stansiyalarında 60-68 meqavata qədər elektrik enerjisi istehsal edilir.

Göründüyü kimi, muxtar respublikanın elektrik enerjisi ilə təminatına möhkəm zəmin yaradılıb. İstehsal olunan elektrik enerjisi nəinki daxili tələbatı ödəyir, hətta onu ixrac etməyə imkan verir.



2016-cı ildə Dövlət Energetika Agentliyinin elektrik stansiyalarında cəmi 437 milyon 917 min kilovat-saat elektrik enerjisi istehsal edilərək elektrik şəbəkələrinə ötürülüb. Bunun 204 milyon 321 min kilovat-saatı və ya 46,7 faizi su elektrik stansiyalarında, 203 milyon 939 min kilovat-saatı və ya 46,6 faizi istilik elektrik stansiyalarında, 29 milyon 657 min kilovat-saatı və ya 6,7 faizi Günəş Elektrik Stansiyasında istehsal edilib. Alternativ və bərpa olunan elektrik stansiyalarında elektrik enerjisi istehsalı ümumi istehsalın 53,4 faizini təşkil edib. Bu göstərici çox nadir hesab olunur. Dünya ölkələri içərisində alternativ və bərpa olunan elektrik stansiyalarında istehsal olunan enerjinin miqdarı ümumi istehsalın 50 faizdən çoxunu təşkil edən cəmi bir neçə ölkə mövcuddur.

***– Yaxın gələcəkdə elektrik enerjisinə olan tələbatın tamamilə alternativ və bərpa olunan enerji ehtiyatları hesabına ödənilməsi mümkün olacaqmı?***

– Enerji təhlükəsizliyini daim diqqət mərkəzində saxlayan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2017-ci il yanvar ayının 11-də muxtar respublikamıza səfəri çərçivəsində Ordubad Su Elektrik Stansiyasının təməlqoyma mərasimində iştirak edib, muxtar respublikada bu istiqamətdə həyata keçirilən tədbirləri yüksək qiymətləndirərək deyib: ***“Ordubad rayonunda elektrik stansiyasının təməli qoyuldu. Bu, çox böyük layihədir, böyük stansiya olacaq, 36 meqavat gücündə su elektrik stansiyası tikiləcək. Bu, Naxçıvan Muxtar Respublikasının iqtisadi və enerji potensialını böyük dərəcədə gücləndirəcək”.***

Ordubad Su Elektrik Stansiyasında layihəyə uyğun olaraq, Araz çayının qarşısına uzunluğu 235 metr, hündürlüyü 12 metr olan dəmir-beton sipər çəkiləcək, 1 milyon 500 min kubmetr su tutumu olan anbar yaradılacaq. Yığılan su uzunluğu 100, eni 20 metr olan 3 çökəltmə hovuzuna buraxılacaq. Lildən təmizlənmiş su uzunluğu 12 min 738 metr, eni 12, hündürlüyü 7,5 metr olan və saniyədə 126,6 kubmetr su apara biləcək dördbucaq şəkilli dəmir-beton kanalla uzunluğu 95, eni 50, orta hündürlüyü 16,84 metrlik yükləmə hovuzuna daxil olacaq. Yükləmə hovuzundan suyun stansiyaya təzyiqlə ötürülməsi üçün diametri 3,9, uzunluğu 320 metr olan 3 metal boru xətti çəkiləcək. Eni 26,5, hündürlüyü 37,4, uzunluğu 70,2 metr dəmir-betonla qurulan elektrik stansiyasında Avropa istehsalı olan hesabat təzyiqi 33,71 metr, hesabat sərfi saniyədə 42,2 kubmetr, hər birinin gücü 12 meqavat olan şaquli françesktipli 3 ədəd turbin və hər birinin gücü 16 meqavolt-amper, gərginliyi 10,5 kilovolt olan 3 ədəd generator, balıqötürən və sutullayıcı qurğu quraşdırılacaqdır. Stansiyada istehsal olunacaq elektrik enerjisinin mövcud elektrik şəbəkəsinə ötürülməsi üçün 2 ədəd hər birinin gücü 50 meqavolt-amper olan 115/10,5 kilovoltluq transformator yarımstansiyası quraşdırılacaq və Ordubad Su Elektrik Stansiyasında istehsal olunan elektrik enerjisinin Naxçıvan Modul Elektrik Stansiyası vasitəsilə şəbəkələrə ötürülməsi üçün uzunluğu 75 kilometr olan 110 kilovoltluq elektrik verilişi xətti çəkiləcək.

Bundan başqa, artıq 14 meqavat gücündə Tivi Su Elektrik Stansiyasının texniki-iqtisadi əsaslandırılması və ilkin layihə sənədləri hazırlanıb. Eyni zamanda 2017-ci ildə Günəş Elektrik Stansiyasının gücü 2 meqavat artırılacaqdır. Bunun üçün xarici şirkətlə müqavilə bağlanılıb, işlərə başlanılıb. Cari ilin iyul ayında işlərin yekunlaşdırılması nəzərdə tutulur. Araz Su Elektrik Stansiyasında 2 nömrəli turbinin əsaslı təmiri, Modul Elektrik Stansiyasında isə 4 aqreqatın 48 min saatlıq işləmədən sonra planlı təmiri həyata keçiriləcəkdir.

Culfa rayonunda külək elektrik stansiyasının tikintisi üçün ötən il ölçü qurğuları alınıb və quraşdırılıb. Bir il ölçü aparıldıqdan sonra 2017-ci ilin avqust ayında bu ərazidə hansı gücdə və sayda külək enerjisi qurğuları qoyulmasının əsaslandırılması mümkün olacaqdır.

Həyata keçirilən kompleks tədbirlər onu deməyə əsas verir ki, muxtar respublikanın elektrik enerjisinə olan tələbatının alternativ və bərpa olunan enerji ehtiyatları hesabına 100 faiz ödənilməsi mümkün olacaq və yaxın gələcəkdə muxtar respublikamız daha çox elektrik enerjisi ixrac edəcək.

***– İstehsal olunan elektrik enerjisinin minimum itki ilə abonentlərə çatdırılması və səmərəli istifadə olunması istiqamətində hansı işlər görülür?***

– Muxtar respublikada istehsal olunan elektrik enerjisinin istehlakçılara fasiləsiz və keyfiyyətli çatdırılması istiqamətində kompleks tədbirlər həyata keçirilib, yeni transformator yarımstansiyaları tikilib, mövcud olanlar yenidən qurulub. Son illər “Culfa”, “Sədərək”, “Çeşməbasar”, “Xal-xal”, “Koroğlu”, “Xalçaçılıq”, “Şərur”, “Naxçıvan”, “Ordubad”, “Qıvraq” və “Nehrəm” transformator yarımstansiyaları müasir şəkildə yenidən qurularaq istifadəyə verilib.

İstehsal olunan elektrik enerjisindən səmərəli istifadə edilməsi və sərf olunan elektrik enerjisinin dəyərinin ödənilməsində mühüm rol oynayan sayğacların quraşdırılması işi də diqqət mərkəzində saxlanılıb, vətəndaşların ev və mənzillərinə rəqəmsal elektron sayğaclar qoyulub, enerji haqqının sayğacların göstəriciləri əsasında ödənilməsi təmin edilib. Hazırda Naxçıvan şəhərində daha müasir, ön ödənişli, smartkarttipli sayğacların quraşdırılması davam etdirilir.

*– Müsahibə üçün sağ olun.*

**Kərəm HƏSƏNOV**

***Dünyada baş verən iqtisadi böhrana və qlobal maliyyə bazarlarındakı qeyri-sabitliyə baxmayaraq, muxtar respublikada ötən il də makroiqtisadi sabitlik təmin olunub. Bu günə qədər qəbul olunmuş dövlət proqramları çərçivəsində həyata keçirilən tədbirlərin uğurla reallaşdırılması nəticəsində infrastrukturun köklü şəkildə yenilənməsi və bütün sahələrə investisiya qoyuluşunun artırılması əldə olunan nailiyyətləri şərtləndirən əsas amildir. Bu müddət ərzində muxtar respublikada bir sıra istehsal və sosial yönümlü obyektlər tikilib istifadəyə verilib.***

# Dövlət proqramları çərçivəsində həyata keçirilən tədbirlər əldə olunan nailiyyətləri şərtləndirən əsas amillərdən biridir

İqtisadiyyatın inkişaf dinamikası və əhalinin maddi rifahı daha çox ümumi daxili məhsul, onun adambaşına düşən miqdarı və əhali gəlirləri ilə ölçülür. 2016-cı ildə əsas makroiqtisadi göstərici olan ümumi daxili məhsulun həcmi 2 milyard 500 milyon manatdan çox olub. Onun hər bir nəfərə düşən həcmi isə 5 min 771 manat təşkil edib ki, bu da 2015-ci ilin müvafiq göstəricisinə nisbətən 3,4 faiz çoxdur.

Ümumi daxili məhsulun tərkibində 28 faizlik xüsusi çəkiyə malik olan sənaye sahəsində aparılan uğurlu islahatlar nəticəsində həmin sahədə də sürətli inkişafa nail olunub. Sənayenin strukturunun təkmilləşdirilməsi, emal müəssisələrinin inkişafı istiqamətində görülən tədbirlər sənaye məhsulunun artmasına səbəb olub. Kənd təsərrüfatı, onun xammalına əsaslanan emal müəssisələrinin yaradılması muxtar respublikanın iqtisadi potensialının möhkəmlənməsinə təsir göstərib. Nəticədə, təkcə 2016-cı ildə 942 milyon manatlıq sənaye məhsulu istehsal olunub ki, bu da 1995-ci ilə nisbətən 103 dəfə çoxdur.

Kənd təsərrüfatında məhsul istehsalının stimullaşdırılması, əhalinin ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi istiqamətində görülən işlər muxtar respublikanın iqtisadi mənzərəsinin dəyişməsində əhəmiyyətli rol oynayıb. Etibarlı ərzaq təminatı iqtisadi sabitliyin və sosial dayanıqlığın başlıca şərti olduğundan bu sahə daim diqqət mərkəzində saxlanılır. Bu gün muxtar respublikamızda əhalini zəruri qida və digər kənd təsərrüfatı məhsulları ilə təmin etmək üçün güclü potensial mövcuddur. Muxtar respublikanın ərzaq məhsullarına olan tələbatının, əsasən, daxili imkanlar hesabına ödənilməsi üçün regionda infrastrukturun yaradılması və kənd təsərrüfatının inkişaf etdirilməsi istiqamətində mühüm islahatlar reallaşdırılıb və 107 növdə ərzaq məhsuluna olan tələbatın yerli istehsal hesabına ödənilməsi təmin olunub. Bunun üçün dövlət tərəfindən kənd təsərrüfatının inkişaf etdirilməsi və müasirləşdirilməsi istiqamətində işlər görülüb, yeni texnikalar alınıb, subsidiyalar ayrılıb, aqroxidmət sahələri yaradılıb, fermerlərə güzəştli şərtlərlə gübrə, yanacaq, texnikalar verilib. Bunun nəticəsində 2016-cı ildə 429 milyon 448 min manatlıq məhsul istehsal olunub ki, bu da 2015-ci illə müqayisədə 6 faiz çoxdur.

Sahibkarlığın inkişafına göstərilən dəstək, onlara kreditlərin verilməsi, özəl sektorun maraqlarının müdafiə edilməsi qarşıya qoyulan məsələlərin həllinə imkan yaradıb. 2016-cı ildə bank və kredit təşkilatları tərəfindən sahibkarlığın inkişafı məqsədilə 17 milyon manatdan çox kredit verilib ki, bu da 1995-ci illə müqayisədə 68 dəfə çoxdur. Təkcə 2016-cı ildə muxtar respublikada 33 hüquqi və 2173 fiziki şəxs qeydiyyata alınıb. Ötən dövr ərzində yeni texnologiyalardan istifadə və məhsul çeşidlərini yeniləşdirməklə rəqabət qabiliyyətinin artırılması, daxili və xarici bazara inteqrasiyanın təşkil edilməsi ilə əlverişli biznes mühitinin yaradılması məhsul istehsalının artmasına təkan verib, 2016-cı ildə 47 yeni istehsal və xidmət sahəsi fəaliyyətə başlayıb, nəticədə, istehsal olunan məhsul növlərinin sayı 366-ya çatdırılıb. Halbuki 1996-cı ildə muxtar respublikada cəmi 10 adda məhsul istehsal olunurdu.

İstehsal və xidmət müəssisələrinin çoxalması məhsul istehsalının həcmi və məşğulluq səviyyəsinin yüksəlməsi ilə nəticələnib. 2016-cı ildə muxtar respublikada açılan iş yerlərinin 98 faizi daimi iş yerləri olmaqla, ümumilikdə, 2 min 818 yeni iş yeri açılıb. İnsan fəaliyyətinin bütün sahələrində təzahür edən məşğulluq, bütövlükdə cəmiyyətin mövcudluğunun maddi-mənəvi əsası, səmərəli iqtisadi fəaliyyətin nizamlanması üçün mühüm amildir. Müasir iqtisadi şəraitdə dövlətimizin makroiqtisadi siyasətinin əsas məqsədlərindən biri də əmək qabiliyyətli əhalinin məşğulluğunu yüksək səviyyədə təmin etməkdən ibarətdir. İqtisadiyyat inkişaf etdikcə, milli gəlir artdıqca vətəndaşlar üçün əlverişli sosial şərait yaranır, onların sosial müdafiəsi güclənir. Digər tərəfdən isə əhalinin sosial vəziyyəti yaxşılaşdıqca onların əmək fəallığı da artır.

Bu gün artıq muxtar respublikada yerli məhsulların rəqabət qabiliyyətini artırmaqla ixraca nail olunub, sahibkarlıq subyektlərinin beynəlxalq əlaqələri genişləndirilib. Tələbatdan artıq istehsal olunmuş məhsulun ixraca yönəldilməsi nəticəsində xarici ticarət dövriyyəsinin həcmi ötən il 457 milyon 421 min ABŞ dolları təşkil edib ki, bu da 1995-ci ilə nisbətən 24 dəfə çoxdur. Əgər 1995-ci ildə xarici ticarət dövriyyəsinin 90 faizi idxalın, cəmi 10 faizi ixracın payına düşürdüsə, ötən illər ərzində bu strukturda köklü dəyişiklik baş verib və 2016-cı ildə ticarət dövriyyəsinin 92 faizini ixrac, cəmi 8 faizini idxal təşkil edib.

İqtisadi inkişafa əsaslanan sosial siyasətin uğurla həyata keçirilməsi iqtisadi və sosial inkişaf arasında tarazlığı təmin edir. Sosial siyasət əhalinin sosial müdafiəsi, təhsili, insanların sağlamlığının qorunması, gənclər siyasəti və əhalinin digər sosial-mədəni ehtiyaclarının ödənilməsi sahəsində fəaliyyəti əhatə edir. Mənzil təminatı sosial tələbatın ödənilməsinin mühüm amillərindən biridir. 2016-cı ildə 2 ictimai yaşayış binası tikilərək istifadəyə verilib, 9 yaşayış binasında yenidənqurma və əsaslı təmir işləri aparılıb. Ötən il ərzində əsas kapitala yönəldilən investisiyaların həcmi 997 milyon manata qədər yüksəlib ki, bu da 1995-ci ilə nisbətən 327 dəfə çoxdur. Vəsaitin böyük hissəsinin tikinti-quraşdırma işlərinə sərf olunması tikinti məhsulunun həcminin dinamik şəkildə artması və kənd yerlərində infrastrukturun yenilənməsi ilə nəticələnib.

*Göründüyü kimi, ötən il Naxçıvanda sosial-iqtisadi inkişaf istiqamətində əldə olunmuş nəticələr ümumi rifahın yüksəlməsini təmin edib. Əhalinin həyat səviyyəsinin daha da yaxşılaşmasına rəvac verən bu inkişafın davam etdirilməsi isə gələcəkdə yeni uğurlara zəmin yaradır.*

**Mehriban İMANOVA**
***iqtisad üzrə fəlsəfə doktoru***

# Naxçıvanda Zərifə Salahovanın 85 illik yubileyi qeyd olunub

*Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında Əməkdar incəsənət xadimi Zərifə Salahovanın 85 illik yubileyi münasibətilə tədbir keçirilib.*

Tədbirdə Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimovanın, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidovanın və muxtar respublika Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyevanın çıxışları olub. Çıxışlarda Azərbaycanda maarifçi, nasir, pedaqoq kimi tanınan Zərifə xanım Salahovanın həyat və yaradıcılığından bəhs olunaraq bildirilib ki, Azərbaycan qadınları həmişə özlərinin ictimai fəallığı, Vətənə sədaqəti, ailəyə bağlılığı və fədakarlıqları ilə seçiliblər. Belə qadınlardan biri də Zərifə Salahovadır. O, 1932-ci il fevralın 2-də Bakı şəhərində dövrünün nüfuzlu ziyalısı olan Teymur Salahovun ailəsində doğulub. Azərbaycana dünya şöhrətli rəssam Tahir Salahov, rəssam-kallioqraf Sabir Salahov, sənətşünas Mahir Salahov, ədəbiyyatçı Leyla Salahova kimi şəxsiyyətlər bəxş edən bir ailədə böyüyən Zərifə Salahova hələ gənc-





lik illərindən ictimai həyatda fəallığı ilə seçilib. Mətbuat orqanlarında, Sumqayıt Şəhər Partiya Komitəsində müxtəlif vəzifələrdə çalışıb. Moskva şəhərində ali partiya məktəbini bitirdikdən sonra Sumqayıt Şəhər Partiya Komitəsinin ikinci katibi, Azərbaycan KP MK-nın təşkilat partiya işi şöbəsində bölmə müdiri vəzifəsində işləyib. Zərifə xanım incəsənətin, mədəniyyətin, ədəbiyyatın təbliği sahəsində mühüm xidmətlər göstərib, nadir formatlı kitablar toplayıb nəşr etdirərək nəcib bir işlə məşğul olub.

Zərifə Salahova 2002-ci ildən fəaliyyət göstərən Miniatür Kitab Muzeyinin təsisçisi və yaradıcısıdır. Muzeydə 60-dan çox ölkədə nəşr olunmuş 8 minə yaxın kitab nümayiş etdirilir. Ulu öndər Heydər Əliyevin qayğısı ilə İçərişəhərdə yerləşdirilən bu nadir incəsənət ocağı dünyada yeganə miniatür muzeydir.

Qeyd olunub ki, Zərifə xanım muzeydəki nadir kitabları, təxminən, 35 il müddətində toplayıb. Muzeydəki kitabların kolleksiyasına görə, onun adı 2015-ci ildə "Ginnesin Rekordlar Kitabı"na düşüb. Azərbaycan dilində ilk miniatür kitab məhz Zərifə Salahovanın əməyi sayəsində işıq üzü görüb. Ümummilli liderimiz Heydər Əliyev onun miniatür kitab işi sahəsindəki zəhmətini yüksək qiymətləndirərək deyib: ***"Azərbaycanda miniatür kitab nəşri sahəsində Zərifə xanım Salahovanın fəaliyyəti yüksək qiymətə layiqdir".***

Vurğulanıb ki, Zərifə Salahova ictimai fəaliyyətini də bir çox istiqamətlərdə davam etdirib, Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin, Azərbaycan Respublikası Prezidenti yanında YUNESKO üzrə Milli Komissiyanın, İctimai Televiziya və Radio Yayımları Şirkəti Müşahidə Şurasının üzvü, Azərbaycan Qadınları Bakı Assosiasiyasının sədri seçilib. Azərbaycanda kitab mədəniyyətinin inkişafındakı xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif edilib, Belarus Respublikasının dövlət mükafatı – "Fransisk Skarina" medalına layiq görülüb.

Bildirilib ki, 2014-cü ilin dekabrında müəllifin iştirakı ilə M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında Miniatür Kitab Muzeyinin filialı yaradılıb və hazırda burada 904 nüsxə miniatür kitab nümayiş etdirilir.

Tədbirdə yubilyar çıxış edərək Miniatür Kitab Muzeyinin yaradılması istiqamətində görülən işlərdən danışıb, Naxçıvan Muxtar Respublikasında bu sahəyə göstərilən qayğıdan, yaradılan şəraitdən söhbət açıb. O, çəkdiyi zəhməti yüksək qiymətləndirdiyinə görə dövlətimizə minnətdarlığını bildirib.

Tədbirin sonunda iştirakçılar kitabxanada yaradılan Miniatür Kitab Muzeyinin filialına baxıblar.

**✍ Hafizə ƏLİYEVA**

# Naxçıvanlı mütəfəkkirlərin istifadə etdikləri titullar

***Naxçıvan Kəmaləddin Naxçıvani, Nəcməddin Naxçıvani, Nəsirəddin Tusi, Hinduşah Naxçıvani, Məhəmməd Naxçıvani, Sadiq bəy Ordubadi, Baba Nemətullah Naxçıvani, Fəzlullah Nəimi kimi alim və mütəfəkkirlərin yetişib formalaşdığı yurd yeridir. Bu yazımızda sizə onların götürdükləri təxəllüs, nisbə, ad və titullardan söhbət açacağıq.***

Təxəllüs nədir? Təxəllüs (ərəbcədən tərcüməsi, təxmis edilmiş, yəni götürülmüş ad), adətən, şairlərin, yazıçıların, rəssamların və digər yaradıcı sənət adamlarının işlətdikləri obrazlı ləqəbdir. Təxəllüslər müxtəlif şəraitdə meydana çıxır. Naxçıvanın tarixinə, ədəbiyyatına müraciət etdikdə bu torpaqda yaşayan bir çox mütəfəkkirin "Naxçıvani" təxəllüsünü götürdüyünü görürük.

***Naxçıvanilər və Hinduşahlar.*** Mirzə Məhəmməd Haşim ibn Müseyib Naxçıvani, İzzəddin Naxçıvani Əbülfəzl Dövlətşah ibn Səncər Abdulla əs-Sahibi ən-Naxçıvani, Əkməlddin Naxçıvani, Fəxrəddin Hinduşah Naxçıvani, Məhəmməd Hinduşah Naxçıvani, Baba Nemətullah Naxçıvani, Molla Məhəmməd Naxçıvani, Mirzə Məhəmməd Haşim ibn Müseyib Naxçıvani, Fazil Naxçıvani və başqaları "Naxçıvani" titulunu daşıyan görkəmli şəxsiyyətlərdir. Bu təxəllüs onlar tərəfindən hansı məkandan gəldikləri, harada doğulduqları bütün cahana agah olsun deyə qəbul edilib.

Orta çağlarda bütün Şərqə şöhrəti yayılan "Naxçıvani" soyadına malik alimlərin əsərləri bu gün Avropanın diqqətini çəkir. İstedadlı ədəbiyyatçı, bacarıqlı dövlət xadimi Fəxrəddin Hinduşah ibn Səncər ibn Əbdullah ən-Naxçıvani fars və ərəb dillərində gözəl şeirlər yaradıb. Bu şeirlərdə onun Naxçıvana olan dərin sevgisi gözlər önünə gəlir, götürdüyü təxəllüsün heç də təsadüfi olmadığını sübut edir:

*Ya Rəbb, Ey xaleqe məkan o zaman,*
*Morsəl o monzəl nəbiyo pəri,*
*Məne dərviş ra bebəxş qəni,*
*Məne delriş ra farest şəfi.*
*Bare digər cenanke mətlubəst,*
*Berşanem bexəttaye Nəşəvi.*

Şeirin tərcüməsi belədir: "Ya rəbb, ey məkanı və zamanı yaradan, Peyğəmbəri göndərən, Quranı göydən endirən. Mən dərvişə güc bəxş et, mən ürəyi yaralıya şəfa göndər. Bir arzum odur ki, məni Nəşəva xəttinə (yəni Naxçıvan hüdudlarına) çatdırasan".

Naxçıvanilər nəsli böyük və sanballı bir tədqiqat əsərinin mövzusudur. Çünki bu nəsildən indiyə qədər öyrənilməmiş bir çox şəxsiyyətlər, o cümlədən Rza Naxçıvani, Abbas Naxçıvani, Əli Naxçıvani, Mirzə Cabbar Vaiz Naxçıvani, Murtuza Rəssam Naxçıvani, Həsən Naxçıvani və başqaları çıxıb.

***Ordubadilər.*** Bəşir ibn Hamid ibn Ordubadi, Ətiq Ordubadi, şair Mirzə Abdulla Əfsər Ordubadi, şair Münşi Mirzə Zeynalabdin Ordubadi (XVI-XVII əsrlər), tanınmış söz ustası Naci Ordubadi, Əbül-Qasim Ordubadi, Ayətullah Hacı Mirzə Məhəmməd Əli Ğərəvi Ordubadi, Şahhüseyn Ordubadi, Ziyai Ordubadi, Hatəmbəy Ordubadi, Sadiq bəy Ordubadi, Hatif İsfəhani (Ordubadi), Məmməd Səid Ordubadi kimi görkəmli şəxsiyyətlərin qəbul etdikləri "Ordubadi" təxəllüsü də tamamilə məkanla bağlılığı ifadə edir. Füsunkar gözəlliyi ilə dillər əzbəri olan qədim Ordubad tarixdə də, günümüzdə də sanballı alimlər, dövlət xadimləri, mütəfəkkirlər, ədəbi simaların yurdu olub. "Ordubadi" təxəllüsü də orta əsrlərdən başlayaraq günümüzə qədər ən çox istifadə olunan təxəllüslərdən biri kimi yadda qalıb.

***Naxçıvanskilər.*** Naxçıvanski Azərbaycan xanlıqlarından biri olan Naxçıvan xanlığının sonuncu xanı Kalbalı xan Kəngərli, onun oğlu Ehsan xan Kəngərlinin daşıdıqları soyad olaraq tarixdə qalıb. Naxçıvanskilərin tarixdə ad qoymuş nümayəndələri çoxdur: Ehsan xan Kəngərli-Naxçıvanski, İsmayıl xan Naxçıvanski, Kalbalı xan Naxçıvanski, Hüseyn xan Naxçıvanski, Cəfərqulu xan Naxçıvanski, Ehsan xan Naxçıvanski, Cəmşid Naxçıvanski…

Naxçıvan xanları Kəngərlidir. Bəs Kəngərlilər kimlər olublar?

Kəngərli nəsli 6000 illik tarixə malik olub, ilk dəfə adları Şumerlə əlaqəli çəkilib. Şumerlərin öz adı Kəngər olub, Şumer adını isə onlara akkadlar verib. Kəngərlər mixi yazını yaradıb, ilk arabanı düzəldib, Orta Asiyada Kanq dövləti (e.ə. IV əsr), Azərbaycan Salarilər dövləti (X əsr) və Naxçıvan xanlığının (XVIII əsr) əsasını qoyub. Bu gün Fars körfəzi adlanan ərazi əsrlər boyu Kəngər körfəzi adlanıb.

Tarixçi-şair Aqil Kəngərli bu barədə yazır: "Kəngərlilər döyüşkən, işgüzar, uzun müddət acliğa dözən adamlardırlar, hərbçidirlər. Qonaqpərvər, dostluqda möhkəmdirlər. Lakin heç vaxt təhqir və incidilməyə dözmürlər və yaddan çıxarmırlar. Çox məğrur və qürurludurlar". (Viktor Qriqoryev "Naxçıvan əyalətinin statistik təsviri" kitabı (1833).

***Şahtaxtinskilər (Şahtaxtlılar).*** Bu kənd onlara miras kimi nəsildən-nəslə ötürülüb. Onlar hər zaman Şahtaxtı – öz ata-baba yurdları ilə öyünüblər. Mənbələrdə qeyd olunur ki, İrəvan qubernatoruna Şahtaxtinskilərin ağsaqqalı Hacı Vəli ağa çox qürurla deyib: "Bizim təzə familiya qəbul etməyə ehtiyacımız yoxdur. Biz 500 ildən artıqdır ki, Şahtaxtlı familiyasını daşıyırıq". Şahtaxtinskilər Rusiya imperiyasının, Avropanın hansı ölkəsində yaşayıb-yaratsalar da, öz doğma yurdlarını heç vaxt unutmayıblar. Şahtaxtlılar nəslinin görkəmli nümayəndələrini gəlin birlikdə tanıyaq: Behbud ağa Şahtaxtinski – tanınmış diplomat; Məhəmməd ağa Şahtaxtlı – publisist, şərqşünas, dilçi, pedaqoq və ictimai xadim; Adilə Şahtaxtinskaya – Azərbaycanın tibb sahəsində ilk qadın professorlarından biri; Elmira Şahtaxtinskaya – Xalq rəssamı; İsasultan Şahtaxtinski – alim, jurnalist və ictimai xadim; Məhəmməd Şahtaxtinski – fizika-riyaziyyat elmləri doktoru, professor; Toğrul Şahtaxtinski – kimya elmləri doktoru, professor; Həbibulla Şahtaxtinski – kimya elmləri doktoru, professor; Həmid bəy Şahtaxtinski – maarifçi, pedaqoq; Əbülfət ağa Şahtaxtinski – hərbçi, ictimai xadim; Leyla Şahtaxtinskaya – xaricdə təhsil almış ilk azərbaycanlı qadın...

Bundan başqa, Naxçıvanda Bəktaşilər, Mirişlilər və sair kimi nəsillər, sülalələr var. Onlar Naxçıvanın tarixinə, elmi-siyasi mühitinə bir çox yeniliklər gətirib, bu qədim diyarın cahanın nəqşinə çevrilməsində böyük xidmətlər göstərib və göstərirlər.

**Nərgiz İSMAYILOVA**

"Naxçıvan tarixi"ndən

# Naxçıvanşahlıq

*Ərəb xilafətinin parçalandığı dövrdə yeni yaranan feodal dövlətləri bir-biri ilə ərazi üstündə çəkişirdilər. Bundan istifadə edən feodallar mülkün sahibi tabeliyində olan torpaqları müstəqil idarə etməyə cəhd edir və müstəqil olmağa çalışırdı. Belə mülk sahiblərindən biri də Əmir Əbu Duləf idi. Əbu Duləf adına ilk dəfə IX-X əsrlər ərəb müəlliflərinin əsərlərində rast gəlinir. Duləfilər xanədanı Həmədanla İsfahan arasında olan yerlərə sahib idi.*

X əsrin 80-ci illərində ölkədə yaranmış siyasi vəziyyətlə əlaqədar Naxçıvanda müstəqil, yaxud yarımmüstəqil dövlət qurumu – "Naxçıvanşahlıq" meydana gəlir. Naxçıvanşahlıq ərəb xilafətinin süqutundan sonra təşəkkül tapmış Azərbaycan feodal dövlətlərindən biri idi. Naxçıvanşahlıq Salarilər dövlətinin son vaxtlarında meydana gəlmiş və Rəvvadilər dövləti ilə yanaşı fəaliyyət göstərmişdir. Naxçıvanşahlıq adlanan feodallığın təşəkkülü Rəvvadilər dövlətinin adı ilə sıx bağlıdır. Bu feodallığın başında Əbu Duləfilər sülaləsinin nümayəndələri dururdu. Duləfilərin idarə etdiyi, Ordubadla Əylis arasında yerləşən Qoğtən əmirliyinin hakimi Əbu Duləf 982-ci ildə Salarilərin son nümayəndəsi Dvin hakimi Əbül Hica ibn İbrahimi məğlubiyyətə uğradaraq, Dvin, Naxçıvan və digər şəhərləri tutur və Basfurracan da daxil olmaqla həmin ərazilərdə möhkəmlənməyə çalışır. Lakin o, buna nail ola bilmir, ancaq onun nəvəsi Əbu Duləf sonralar Dvini yenidən tutur və "Naxçıvanşah" titulunu qəbul edərək şahlığı idarə edir. Bu feodal dövləti Naxçıvan, Qoğtən (Qoltan, Ordubad, Əylis) əmirliyi və Dvin ərazisini əhatə edirdi. Naxçıvanşahlıq 80 ilə yaxın (983-1065/66) mövcud olmuşdur. Qeyd etməliyik ki, Əbu Duləf "xüsusi xidmətlərinə görə" Yusif ibn Əbu-s Sacın köməyi ilə Naxçıvan və Qoğtənə sahib olmuşdu. Lakin M.Şərifliyə görə Əbu Duləf tutduğu yerləri 987-ci ilə qədər əlində saxlaya bilmişdi, 987-988-ci illərdə Əbu Duləfin qoşunu Əbülheycə ibn Rəvvad tərəfindən məğlubiyyətə uğradılır. Nəticədə Əbu Duləfin ələ keçirdiyi torpaqlar Rəvvadilər tərəfindən geri alınır, 988-ci ildə Rəvvadi hökmdarının ölümü Əbu Duləfin yenidən Naxçıvan və Dvində möhkəmlənməsi üçün şərait yaradır. N.Vəlixanlı qeyd edir ki, "Əbu Duləfin adı çox uzun, təqribən, 77 il müddətinə tarixi qaynaqların səhifələrindən çıxır və yalnız XI əsrin 60-cı illərinin ortalarına yaxın öz mədhiyyələri ilə məşhur olan Qətran Təbrizinin və Tusdan olan Əli Əsədinin əsərlərində görünür". Qətran Təbrizinin qəsidələrində, Əsədi Tusinin "Gərşasbnamə" əsərində Əbu Duləf "ədalətli şahənşah", "Naxçıvan şahı", "ölkələr hakimi" kimi adlandırılır. R.Məmmədov, M.Şərifli, V.Piriyev və digər tarixçilər Naxçıvanşahlığı müstəqil feodal dövlət kimi tədqiq etsələr də, N.Vəlixanlı bunu "müstəqil dövlət deyil, Şəddadilər dövlətinin tərkib hissəsi olduğu, bu dövlətin Gəncə-Naxçıvan (Arran) əmirliyinə tabe olduğunu qeyd edir. Müəllifin fikrincə, Duləfilərin idarə etdikləri Naxçıvan dövlət deyil, feodal hakimlərin idarə etdikləri şəhər və ya vilayət idi. Duləfilərin idarə etdiyi Naxçıvan bu dövrdə Şəddadilər dövlətinin tərkibində bir əmirlik idi. XI əsrdə hakim sülalə olan Əbu Duləfilər Naxçıvanda iri feodallar hesab olunurdular.

Naxçıvanşah Əbu Duləf Azərbaycan hakimi Rəvvadi Vəhsudan ilə dost olub, onunla hərbi ittifaqa girmiş, rumlulara (Bizansa) və başqa düşmənlərə qarşı birgə vuruşmuşlar. Rəvvadi hökmdarı əmir Vahsudanla Şəddadi hökmdarı Əbülhəsən II Ləşkəri arasında əldə edilmiş dostluq və ittifaq, sözsüz ki, duləfilərin hakimlik etdikləri Naxçıvanda əmin-amanlığın bərpası üçün şərait yaratmışdı. Rəvvadilərlə qohumluq əlaqələri olan Duləfilərin idarə etdiyi Naxçıvan bu dövrdə Şəddadilərə tabe idi.

Naxçıvanşahlığın son dövrü haqqında məxəzlərdə məlumata təsadüf edilməmişdir. Yalnız bu məlumdur ki, Səlcuq hökmdarı Alp Arslan (1063-1072) Azərbaycanın cənub vilayətlərində Rəvvadilər sülaləsinin hakimiyyətinə son qoyduqdan sonra, 1064-cü ildə Naxçıvana yiyələnmiş və buradan Ani şəhərinə hücum edərək onu tutmuşdu. M.Şəriflinin fikrincə, "Alp Arslan Naxçıvan şahlığını ləğv edərək, Səlcuq dövlətinə tabe etmiş, Naxçıvana öz əmirini təyin etmişdi". N.Vəlixanlıya görə isə "Naxçıvan əmirliyi sultan Alp Arslanın bu əmirliyi ləğvindən sonra da Şəddadilər dövləti süqut edənədək (1075) onun tərkibində qalmışdır".

***Mənbə: "Naxçıvan tarixi" çoxcildliyinin I cildi***

*Alimlər mineral sularının zənginliyinə görə Naxçıvan Muxtar Respublikasını hidrokimyəvi muzeyə bənzədirlər. Ona görə ki, bu gün diyarımızda 250-dən çox mineral su mənbəyi var. Bu bulaqlar tərkibinə görə müxtəlif tiplidir və onların sularından içməli su təchizatında, müalicə məqsədilə və sənayedə istifadə edilir. Ərazidə suların tābii formalaşmasında relyefin, çay şəbəkəsinin, yarandıqları geoloji mühitin, iqlimin böyük əhəmiyyəti vardır. Tarixi qaynaqlardan məlumdur ki, həmişə dirilik və şəfa suyu olan bulaqlardan bəhrələnib, onların müalicə qüdrətinə inanmış xalqımız bu sulara yel suyu, mədə suyu, dəri suyu, şor su və sair adlar verib.*

*Təbii sərvətlərimiz*

# Mineral bulaqlar muzeyi – Naxçıvan

Onların bu gün xarici bazarlarda artıq yerini tutan, dünyaya sorağı yayılanları ilə yanaşı, elələri də var ki, hələ səssiz-səmirsiz təbiətin qoynuna axır. Qəzetimizin əvvəlki nömrələrində uzun illərdir, şöhrət qazanmış, insanların süfrəsini bəzəyən və müxtəlif xəstəliklərin müalicəsində müsbət təsir göstərən Badamlı, Sirab, Gülüstan və daha bir neçə mineral bulaq haqqında bəhs etmişik. Yenidən bu mövzuya qayıtmaqda məqsədimiz isə digər sularımız barədə söhbət açmaqdır.

...Uca Yaradanın Naxçıvana bəxş etdiyi müalicəvi sular içərisində Darıdağ suyunun xüsusi yeri var. Bu sudan hələ qədim zamanlardan kustar şəkildə sümük-oynaq, əzələ sistemi xəstəliklərində, o cümlədən "duzlaşma" adlanan patologiyalar və onun müxtəlif fəsadlarının müalicəsində geniş istifadə edilib. Culfa rayonunun yaşlı sakini Hüseyn Həsənov deyir ki, Darıdağda çox qədim zamanlarda dəmyə olaraq darı əkilərdi. Eşitdiyinə görə, Darıdağ "darı" sözündən götürülüb, mənası dərman deməkdir. Bu dağın sərvətləri olan sulardan müxtəlif xəstəliklərin müalicəsində istifadə edən insanlar həm də mərgümüşdən ziyanvericilərə qarşı mübarizədə fayda görüblər.

Adıçəkilən suyun insan həyatına mühüm müalicə vasitəsi kimi daxil olması məqsədilə 1978-ci ildə burada Darıdağ Arsenli Su Müalicəxanası fəaliyyətə başlayıb. 2005-ci ildə müasir tələblərə uyğun yenidən qurularaq istifadəyə verilən şəfa ocağına ölkəmizin müxtəlif bölgələrindən, həmçinin xarici ölkələrdən gələnlərin sayı ilbəil artır. Kimya üzrə fəlsəfə doktoru Fizzə Məmmədovanın sözlərinə görə, Darıdağ suyu karbon qazlı, mərgümüşlü, yüksək minerallaşdırılmış xlorlu-hidrokarbonatlı-natriumludur. Bu su Fransadakı Lya-Burbul, Polşadakı Kudovi, Saxalindəki Sineqorsk, Almaniyadakı Dürkgeym sularının oxşarıdır. Lakin suyun tərkibindəki mineral duzların mütənasibliyi, duz tərkibinin zənginliyi və arsen yarımqrupu elementlərinin miqdarına görə Darıdağ suyu onlardan daha üstündür. Tərkibi arsen, stibium və bismut kimi elementlərlə zəngin olan Darıdağ termal suyundan yalnız təbii vannalar şəklində istifadə olunur. Bu su qanyaradıcı xüsusiyyətə malik olub, qan dövranı üzvlərinin fəaliyyətinə müsbət təsir edərək qanazlığını aradan qaldırır. Darıdağ suyu ilə müalicə vegetativ sinir fəaliyyətini gücləndirməklə mədə, qaraciyər, böyrək və ürək əzələsində mübadiləni sürətləndirərək onların funksional vəziyyətini normallaşdırır. Fizzə Məmmədova deyir ki, bu suyun maddələr mübadiləsinə təsirini öyrənən bir çox alim onun mübadilə pozğunluğundan yaranan artritlərə müalicəvi təsirini sübuta yetirib. Suyun təsirindən yaraların təmizlənməsini, çətin sağalan yaraların qısa müddətə, həm də çapıqsız sağalmasını həkimlər onun antiseptik və bakterisid qabiliyyəti ilə əlaqələndirirlər.

Hələ sovet dönəmində Azərbaycanda istehsal olunan mineral suların içərisində Vayxır mineral suyu da olub. 1985-ci ildə illik hasilat gücü 200 milyon şüşə olan sudoldurma zavodunun məhsulu mağazalarda satılan yerli suların içərisində ən zəngin mineral sulardan hesab edilirdi. Minerallıq dərəcəsi 7 qram litr olan Vayxır mineral suyunun osmotik qatılığı insanın qan plazmasına yaxındır. Tərkibində hidrokarbonatlar, natrium, kalium, kalsium, yod, dəmir, mis, sink, arsen, stronsium və sair elementlər olan Vayxır suyu qaraciyər xəstəliklərinin (hepatit, qaraciyər çatışmazlığı), xroniki qastritin, xroniki kolitin, müxtəlif mənşəli diatezlərin, şəkərli diabetin müalicəsində çox effektlidir.

Babək rayonu ərazisində, Vayxır kəndinin şimal-qərbində, dəniz səviyyəsindən 1100 metr hündürlükdə, Sarıdağın sıldırım qayalarında təbii faktorların vulkanik fəaliyyəti və aşınmaların təsirindən tektonik qırılma xətləri vasitəsilə yer səthinə çıxan bu sudan qədim zamanlardan insanlar dəri xəstəliklərində, boğaz ağrıları zamanı qarqara kimi də istifadə edib və nəticəsini görüblər.

Vayxır suyunun tərkibində bor var ki, əvvəllər sənaye və kənd təsərrüfatı üçün borun əhəmiyyəti müəyyənləşdirilməmişdi. Son onilliklərdə bu elementin vacib əhəmiyyət kəsb etdiyi, onun birləşmələrindən atom və raket texnikası, metallurgiya, metal emalı, kimya sənayesi və digər sahələrdə istifadə olunduğu aşkarlanıb. Torpaqda bor kifayət qədər olmadıqda bir sıra bitkilərin məhsuldarlığı çox azalır. Yəqin elə bu səbəbdən Vayxırın bu su tutan ərazilərində əkin sahələrinin məhsuldarlığı bol olur.

Tivi mineral su bulağı Ordubad rayonu ərazisində, Tivi kəndinin ətrafındadır. Bir neçə çıxışdan ibarətdir. Su karbon qazlı, az minerallaşmış, hidrokarbonatlı, kalsiumlu, maqnezi-umludur. Narzan tiplidir. Daxili xəstəliklərin müalicəsində istifadə etmək məsləhətdir.

Gənzə mineral bulağı isə Ordubad rayonunun mərkəzindən 6 kilometr şimal-şərqdə, Anabad kəndi yaxınlığında Gənzə çayının sahil qumlarından çıxır. Suyu şəffaf, turşməzədir. Su orta dərəcədə minerallaşmış, Rusiyanın (Şimali Qafqaz) Jeleznovodsk mineral suyunun analoqudur. Gənzədəki mineral bulaqların suyundan (bir neçə bulaq vardır) Ordubad rayonunda süfrə suyu kimi istifadə olunur.

Şahbuz rayonunda da zəngin, müalicəvi bulaqlar çoxdur. Bu gün yaşayış olmayan Zırnel kəndindəki bulaqlardan bir neçəsi barədə həmin kəndin yaşlı sakini Narıngül Məmmədovanın söhbətinə əsaslanaraq söz açmaq istərdim.

*Sarı bulaq.* Bu bulağın belə adlandırılması heç də təsadüfi deyil. Sarı adlı bir şəxs bu suyu kəndə dağlardan çəkib gətirib. İnsan bədənində yod çatışmazlığı zamanı bu sudan qəbul edirlər.

*Uzunoba bulağı.* Bulaq buradakı oba yerinin adı ilə belə adlanır. Bulaqdan çıxan suyun səthi par-par parıldayır, üzərində sarı-qızılı rəngdə maddələr görünür. Hətta suyun axarı ilə getsən, ətrafında sanki qızıl qarışıqlı torpaqlar, göz qamaşdıran rəng ilə rastlaşarsan. Elə bil yeraltı xəzinənin müjdəçisidir bu bulaq.

*Göy bulaq.* Çıxdığı ərazi gömgöy gildir. Suyun tərkibi göyə çalır. Mənbəyindən 4-5 metr aralanandan sonra şəffaf olduğu görünür. Bu bulağın suyundan dəri xəstəliklərinin bütün növlərinin müalicəsində istifadə olunub.

*Daş bulaq.* Quzey adlanan sahədə daşların içindən qaynaya-qaynaya göz yaşıtək süzülüb gəlir. Suyu o qədər soyuqdur ki, yayın qızmar çağında belə, əli suda 1 dəqiqə saxlamaq mümkün deyil. Yayda ətrafdakı biçinçilər bulağın içərisinə evdən gətirdikləri xörəyi, ayranı qoyaraq ondan soyuducu kimi istifadə edirlər. Daş bulaq eyni zamanda insanın böyrək və öd kisəsində olan daşların əriməsində də faydalıdır.

Təbiətin ecazkar yurdu Naxçıvanımızda hələ tədqiq olunası sularımız çoxdur...

✍ **H.ƏLİYEVA**

# Qız voleybol komandaları arasında yoldaşlıq görüşü



Naxçıvan şəhər 3 nömrəli tam orta məktəbin idman zalında məktəblər arasında dostluq və idman əlaqələrinin gücləndirilməsi məqsədilə voleybol üzrə yoldaşlıq görüşü keçirilib.

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi ilə 3 nömrəli tam orta məktəbin birgə təşkil etdiyi yoldaşlıq görüşündə Naxçıvan Şəhər Qızlar Liseyinin və təşkilatçı məktəbin qız komandaları mübarizə apardılar. Tədbirin açılış mərasimində çıxış edən şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov, 3 nömrəli tam orta məktəbin direktoru Pərvin Mirzəyeva muxtar respublikada idman sahəsində görülən işlərdən, qazanılan uğurlardan danışaraq bildiriblər ki, bugünkü görüşün keçirilməsində məqsəd qızları idmana cəlb etməkdən ibarətdir. Görüşdə 2:1 hesabı ilə Qızlar Liseyinin komandası qalib gəlib.

Sonda hər iki komandaya təşkilatçıların diplom, fəxri fərman, kubok və hədiyyələri təqdim edilib.

✍ **Ceyhun MƏMMƏDOV**

*Hər kəs 100 il yaşamasa*

# Məni uzunömürlü edən zəhmətə qatlaşmağım, yaşadan isə dövlətimdir

– Salam, Səfurə nənə, səni görməyə gəlmişik!

– Allah sizdən razı olsun, xoş gəlib, səfa gətirmisiniz, qapımız həmişə qonaq üzünə açıq olub.



– Necəsən, sağlamlığın yerindədirmi?

– Allaha şükür olsun ki, yaxşıyam. Eh, qan-qada olmasın, qalan işlər düzələr. Əyləşin, yoldan gəlmisiniz, gəlinim bir çay versin!

... Allah sənə uzun ömür versin! İndi bu alqışı ad günlərində, ildönümlərində tez-tez eşidirik. Hər kəs sevdiyi adama uzun ömür, cansağlığı arzulayır, uzunömürlü olmaq istəyir, ancaq qocaldığını etiraf edə bilmir. Gəlin səmimi etiraf edək ki, hər kəsə uzun ömür qismət olmur. Belə demək mümkünsə, bu yalnız seçilmiş insanlara verilən Tanrı payıdı. Uzunömürlü olmaq da insandan böyük ürək, səbir, dözüm istəyir. Çünki həyatın boyu nəyisə qazanırsansa, nələrisə, daha doğrusu, kimlərisə də itirirsən. Elə ötən günlərdə Naxçıvan şəhərinin Atabəylər məhəlləsindəki evində qonağı olduğumuz çinar ömürlü Səfurə nənə kimi.

Alnındakı qırışlarda 106 illik ömrün izləri olan Səfurə nənə ötən əsrin əvvəllərində Bakıda dünyaya gəlib. Valideynləri o illərdə Cənubi Azərbaycandan iş üçün torpağın hər qarışının neft qaynadığı Bakıya üz tutublar. O, dünyaya gələndə anası dünyasını dəyişib. Çox keçməyib ki, anasının yerini heç tanımadığı bir qadın tutub. Ancaq ögey ana onunla və iki qardaşı ilə o qədər də xoş davranmayıb. Bəlkə də, bu səbəbdəndir ki, o, erkən yaşlarında Qara Hüseynovla ailə quraraq Naxçıvana köçüb. Ticarət sahəsində çalışan həyat yoldaşı ilə bu diyarda uzun illər xoşbəxt yaşayıblar, həyatın gətirdiyi çətinliklərə birlikdə sinə gəriblər. Bu illər ərzində 6 övladı – 4 oğlu, iki qızı dünyaya gəlib. Vaxt gəlib, il dolanıb ömür-gün yoldaşı ilə əbədilik vidalaşmalı olub. Sonra isə... Sonra isə övladlarından ikicəciyi qalıb. Bir oğlu, bir qızı. Və bir də 20 nəvə, 30 nəticə, 12 kötücə. Bir də ki yolunu gözlədiyi yadıca.

İnsan fitrətən əbədi yaşamağa meyillidir. Məhz bu meyil əsrlərdir, insanı uzunömürlülüyün sirlərini tapmaq üçün axtarışlar aparmağa sövq edir.

Təsadüfi deyil ki, əfsanələrə görə, dünyanı fəth edən İsgəndər heç vaxt ölməmək üçün dirilik suyunu axtarırdı, ancaq özü cəmi 33 il yaşamışdı. Səfurə nənə üçün isə uzunömürlülüyün sirri başqadır. O, deyir ki, evdar qadın olsam da, hər zaman hərəkət etməyə, hansısa bir işdən yapışmağa çalışmışam. Ən çox təmizliyə fikir vermişəm, yeməyimə diqqət yetirmişəm. Övlad, gəlin sarıdan da bəxtim gətirib ki, hər zaman qayğıma qalıblar, məni xəstələnməyə qoymayıblar. Həyatda çox çətinliklər görmüşəm, ancaq bu çətinliklər məni ruhdan salmayıb. Yaşamağa, həyatdan, təbiətdən zövq almağa çalışmışam. İndi şəraitimiz də yaxşıdır. İki müharibə dövrünü yaşamışam. Əvvəllər çox çətinlik olub. Belə bir məsəl var, deyərlər ki, ağ gün insanı ağardar, qara gün qaraldar. Əvvəllər Naxçıvan camaatı çox əziyyət çəkib. Bir tərəfdən övladlarımız şəhid olub, bir tərəfdən də işığımız, qazımız kəsilib. Ən təmiz meyvə-tərəvəzi, yeməyi ilə tanınan Naxçıvanda çörək də qıta çıxıb. Ancaq indi Allaha şükür, qışın oğlan çağında evdə isti suyumuz da, işığımız da, istiliyimiz də var. Çörək də boldur. İnsanlar rahat yaşayırlar. Ömrümün bu illəri mənə də çox şirin gəlir, yaşamağa, həyatdan zövq almağa çalışıram. Cavanlara məsləhətim budur ki, bu dövranın qədrini-qiymətini bilsinlər, sağlamlıqlarının qeydinə qalsınlar, bir də zəhmətə qatlaşsınlar. Belə olsa, hər kəs uzun ömür yaşaya bilər. Belə dövranda yüz il yaşamağa nə var ki?

İllər öncəsində, kiçik yaşlarında olduğu kimi Səfurə nənənin yanında oturub onu dinləyən oğlu Məmmədəli Hüseynovun, qızı Məsmə Quliyevanın da artıq saçlarına dən düşüb. Söhbət zamanı analarını böyük məhəbbətlə izlədikləri, onun hər bir sözündən dərs aldıqları sözlərindən bəlli olur. Səfurə nənənin gözündə isə onlar elə balaca övladlar kimi qalıb. Söhbət əsnasında tez-tez onların qayğıları ilə maraqlanan Səfurə nənə eşitməkdə çətinlik çəksə də, cavabları anlamaqda çətinlik çəkmir. Bilir ki, xəstə olsalar da, onlar anaları narahat olmasın deyə "Yox, ay ana, yaxşıyam" deyəcəklər.

Ağbirçək olan evdə xeyir-bərəkət də olar, mehribanlıq da, bir-birinə qarşılıqlı hörmət də. Qonağı olduğumuz evdə də belə bir ab-hava var. Hər kəs bir-birinin sözünü böyük hörmətlə dinləyir, hər hansı bir işə kömək etməyə çalışır. Belə yerdə – hər şey evin ağsaqqalından, ağbirçəyindən asılıdır, ağsaqqal sözü, ağbirçək öyüdü evlərdən uzaq olmamalıdır deyimi yada düşür.

Elimizin, obamızın ağbirçəyi, sözü şükürlü-dualı Səfurə nənə ilə sağollaşıb bu evdən, ocaqdan ayrılıram. İncə barmaqları ilə ağ, seyrəlmiş saçlarını oxşayan çinar ömürlü nənə bizə astaca "Yaxşı yol, bala, Allah amanında", – deyir.

✍ **Səbuhi HÜSEYNOV**


**ŞƏRQ qapısı**

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 122